http://www.amu.edu.az

# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 07 (1647) 15 aprel 2017 - ci il Qiymәti 50 qəpik

# İlham Əliyev: İslam dini dostluq dinidir

**"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 37-ci cildi çapdan çıxıb.**

**AZƏRTAC xəbər verir ki, çoxcildliyin bu cildi Azərbaycan Prezidenti İlham Əliyevin Təzəpir məscid kompleksinin əsaslı yenidənqurma və geniş tikinti işlərindən sonra istifadəyə verilməsi mərasimində iştirakına dair informasiya ilə başlanır.**




Bu qeydlərin sərlövhəsinə çıxarılmış fikir dövlətimizin başçısının həmin mərasimdəki nitqindən götürülüb. Prezident deyib: "Əfsuslar olsun ki, bəzi hallarda İslam dini haqqında qəsdən yalan məlumatlar yayılır, islamofobiya siyasəti aparılır. Bu gün dünyada dinlərarası dialoqdan çox danışılır və buna böyük ehtiyac vardır. Ancaq bəzi hallarda dini ayrı-seçkilik meyilləri də görünür. Biz İslam dininə qarşı aparılan kampaniyanı və əsassız ittihamları rədd edirik. İslam dini dostluq dinidir. İslam dövlətləri arasında çox geniş mənada əməkdaşlığa və dostluğa ehtiyac var".

Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələrinin bir ailə kimi yaşadığını qeyd edən Prezident vurğulayıb ki, ölkəmizdə heç vaxt milli və dini zəmində ayrı-seçkilik olmayıb, yoxdur və olmayacaq.

Çoxcildliyin bu nəşrinə daxil olan materiallar 2009-cu ilin iyulundan sentyabrınadək olan dövrü əhatə edir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin bu kitabda dövlətimizin başçısının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına, Rumıniyaya, Rusiya Federasiyasına, Qazaxıstana səfərlərinə, habelə Suriya və Latviya prezidentlərinin Bakıya səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə danışıqlarına, mətbuata bəyanatlarına, imzalanan sənədlərə dair materiallar toplanıb.

Nəşrin bu cildinə Azərbaycan Prezidentinin ölkəmizə səfər etmiş Birləşmiş Ərəb Əmirlikləri, ABŞ, İsveç, Çexiya, Almaniya, Türkiyə, Belarus və digər dövlətlərin, ATƏT, Avropa İttifaqı, TÜRKSOY təşkilatlarının, xarici şirkətlərin yüksək vəzifəli şəxslərini qəbul etməsinə dair materiallar, habelə dövlətimizin başçısının məktubları daxil edilib.

Azərbaycan Prezidenti bütün görüş və danışıqlarında Ermənistanın işğalçılıq siyasətini önə çəkib, dünya ictimaiyyətini Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə dəstək olmağa çağırıb.

Bu cilddə, həmçinin Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2009-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında giriş və yekun nitqləri, Naxçıvan Muxtar Respublikasına, Hacıqabul, Quba, Qusar rayonlarına səfərlərinə, bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərinə, təhsil, səhiyyə və sənaye müəssisələrinin, infrastruktur obyektlərinin açılışında iştirakına, paytaxtımızda aparılan abadlıq-quruculuq işləri ilə tanışlığına dair informasiyalar yer alıb.

Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 37-ci cildin hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## BU SAYIMIZDA

Hərbi Tibb Fakültəsinin yeni tədris binası istifadəyə verilib 2



Xalqımıza qarşı törədilən erməni vəhşiliyi 3

Cibutinin Səhiyyə naziri ATU-da qonaq oldu 2



UNİCEF məsləhətçisi ilə görüş keçirilib 3



Azərbaycan-Türkiyə 3-cü Beynəlxalq Bariatrik-Metobolik cərrahiyyə konqresi keçirildi 4

Azərbaycanda autizmli uşaqların sayı artır 6

Nizam-intizam qaydaları ilə bağlı iclas keçirildi 7



Azərbaycanda ilk dəfə olaraq Tibb Universitetinin nəzdində Heriatriya şöbəsi fəaliyyət göstərəcək 5

TANINMIŞ ŞAİR ELDAR İSMAYILIN 75 İLLİK YUBİLEYİ QEYD OLUNUB 7

# Hərbi Tibb Fakültəsinin yeni tədris binası istifadəyə verilib

**Müdafiə Nazirliyinin rəhbər heyəti və Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ərazisində yerləşən Hərbi Tibb Fakültəsinin yeni tədris binasının açılışında iştirak ediblər.**

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini-Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov təhsilin yüksək səviyyədə təşkil edilməsi üçün tibbi avadanlıqlar və bütün kommunikasiya sistemləri ilə təchiz edilmiş iki mərtəbəli yeni bina barədə məlumat verib.





Bildirilib ki, tibb xidmətinin təşkili və taktikası, eləcə də hərbi tibbi profilaktika kafedralarının yerləşdiyi korpusda kursantların nəzəri və praktiki hazırlığı müasir tələblərə cavab verən müxtəlif tədris sinifləri, simulyasiya kabinetləri, laboratoriya otaqları və digər yardımçı bölmələrdə həyata keçiriləcəkdir.

Bina ilə tanışlıqdan sonra geniş brifinq salonunda şəxsi heyətlə görüş keçirilib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Müdafiə naziri general-polkovnik Z.Həsənov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrin hər bir sahəsində olduğu kimi hərbi tibb sahəsinin də sürətlə inkişaf etdiyini vurğulayıb.

Müdafiə naziri ötən ilin aprel ayında cəbhə xəttində baş vermiş döyüşləri, o cümlədən Ermənistanın daim vəziyyəti gərginləşdirmək məqsədilə təxribatlar törətməsini xatırladaraq hərbi tibb mütəxəssislərinin peşəkarlıqlarını artırmalarını, dərin biliklərə və geniş təcrübəyə malik olmalarını xüsusi qeyd edib.

Azərbaycan Tibb Universitetinin rektoru, professor G.Gəraybəyli də bu günün Hərbi Tibb Fakültəsinin tarixində əlamətdar gün olduğunu, yeni binada təhsilin yüksək səviyyədə tədris olunması üçün şəraitin yaradıldığını, həmçinin niversitet tərəfindən hərbi tibb kadrlarının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə hərtərəfli köməkliyin göstəriləcəyini bildirib.

Sonda Müdafiə naziri tibbi heyətə müvafiq tapşırıqlarını verib.

# Cibutinin Səhiyyə naziri ATU-da qonaq oldu

- **Cibuti Səhiyyə Nazirinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Tibb Universitetində qonaq olub.**





Cibutinin Səhiyyə naziri Dr. Cama Elmi Okieh, Səhiyyə Nazirliyinin nümayəndələri, Cibutinin ölkəmizdəki səfiri Məhəmməd Ali Kamil, o cümlədən Azərbaycanın Cibutidəki səfiri Elman Abdullayevin daxil olduğu nümayəndə heyəti ilə ATU-nun rektoru, professor Gəray Gəraybəyli arasında bir çox məsələlərlə bağlı müzakirə aparılıb.

Görüşdə professor Gəray Gəraybəyli qonaqlara universitetin fəaliyyəti, ATU-dakı mövcud tədris və təhsil sistemi, tələbələrin keyfiyyətli təhsili üçün yaradılan şərait haqqında ətraflı məlumat verib. Qeyd edilib ki, hazırda ATU Azərbaycanda tibb təhsili verən yeganə ali təhsil ocağıdır: "Universitetimiz təkcə Azərbaycan deyil, dünya üzrə də tanınan təhsil ocağına çevrilməkdədir. Məhz bu səbəbdən bir çox xarici ölkədən olan tələbələrimiz var və hər il əcnəbi tələbələrin sayı artır. Xarici tələbə sayına görə ATU digər universitetlərlə müqayisədə demək olar, birincidir. Universitetimiz son illər beynəlxalq əlaqələrin genişlənməsinə böyük diqqət yetirir. Bir çox xarici universitetlərlə sıx əlaqələrimiz, qarşılıqlı əməkdaşlıq sazişlərimiz var". Rektor bildirib ki, ATU-nun beynəlxalq əlaqələri yalnız tələbə mübadiləsi ilə məhdudlaşmır. Həmçinin, universitet nəzdindəki klinikalar bir çox ölkələrdən mütəxəssislər qəbul edir, onların iştirakilə elmi konfranslar, seminar və təlimlər keçirilir.

Rektor G.Gəraybəyli bu görüşün gələcəkdə iki ölkənin səhiyyə və təhsil sahəsində ciddi əlaqələrin qurulması istiqamətində atılmış böyük addım olacağından əminliyini qeyd edib: "Azərbaycan və Cibuti arasında yüksək səviyyəli münasibətlər mövcuddur və bu əlaqələr inkişaf edir. İnanıram ki, həm səhiyyə sistemində, həm də təhsil sektorunda əməkdaşlıq, birgə layihələrin aparılması hər iki tərəf üçün faydalı olacaq".

Cibutinin Səhiyyə naziri Dr.Djama Elmi Okieh Azərbaycanda olmasından məmnunluğunu bildirdi. O, səhiyyə naziri Oqtay Şirəliyevlə görüş haqqında məlumat verərək səhiyyə və tibb təhsili sahəsində əməkdaşlıqda maraqlı olduqlarını dedi: "Bizim ən böyük sərvətimiz insan resurslarıdır. ATU Azərbaycanda özünün nüfuzu ilə tanınan, seçilən universitetlərdəndir. Çox istərdik ki, ATU-nun əcnəbi tələbələri arasında bizim ölkənin gəncləri də olsun".

Daha sonra ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov görüş iştirakçılarına ATU-da xarici vətəndaşların təhsil şərtləri, qaydaları haqqında geniş məlumat verdi. O, ATU-da ümumilikdə 7000-ə yaxın tələbənin təhsil aldığını, bunlardan 1500-nün xarici tələbələr olduğunu dedi. Qeyd olundu ki, hazırda ATU-da 26 ölkədən tələbələri müxtəlif əsaslarla təhsil alırlar. N.Zeynalov həmçinin qonaqlara ATU-nun xarici tələbə yataqxanası haqqında, tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi üçün təşkil olunan tədbirlərdən də danışdı.

Görüşdə qarşılıqlı əməkdaşlığın yaranması və inkişaf etdirilməsinə dair maraqlı müzakirələr aparıldı.

# ATU-da yeni mərkəz yarandı

### Uşaq Psixi Sağlamlıq və İnkişaf Mərkəzi artıq fəaliyyətdədir

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Uşaq Psixi Sağlamlıq və İnkişaf Mərkəzi (UPSİM) yaradılıb.

Son illər inkişaf problemlərinin və autizm spektr pozulmalarının rastgəlmə tezliyinin artmasını, bu problemlərin erkən diaqnostikasının çox zəruri olduğunu qeyd edən mərkəzin rəhbəri, Nigar Sədiyeva, mərkəzin sadəcə klinik deyil, elmi və tədris istiqamətlərində də fəaliyyət göstərəcəyini bildirib: "Mərkəzdə sağlam uşaq təqibi; inkişaf problemlərinin , pediatrik və psixi xəstəliklərin erkən diaqnostikası və müalicəsi həyata keçirilir. Mərkəz ölkədə xüsusilə, neyroinkişaf problemlərinə multidisiplinar yanaşmanı təmin etməyi hədəfləyir. UPSİM tədris prosesi ilə yanaşı, elmi əsaslar üzərində fəaliyyət göstərməyi, dünyada mövcud bənzər mərkəzlərlə əməkdaşlığı və beynəlxalq təcrübənin ölkəmizdə tətbiqini planlaşdırır".

Mərkəzin həkimlərindən artıq üç nəfəri ABŞ-da elmi tədqiqatlar üzrə təhsil almış, inkişaf pediatriyası bölmələrində ixtisasartırma kurslarını keçiblər.

Nigar Sədiyeva mərkəzin yaranmasının əsas məqsədini belə: " Franklin deyirdi ki, əgər öldükdən sonra xatırlanmaq istəyirsinizsə, ya oxumağa dəyər şeylər yazın, yaxud yazmağa dəyər işlər görün. Biz, UPSİM-i bu arzularla , vətənimizə, səhiyyəmizə, elmimizə faydalı olması üçün yaratdıq".

Qeyd edək ki, mərkəz dörd nəfərlik həkim briqadasından və həkim rezidentlərdən ibarətdir. Həkim briqadası ATU-nun psixiatriya kafedrasının psixiatrı İkram Rüstəmov, pediatr Nigar Sədiyeva, assisent Nərmin Quliyeva və uşaq nevroloqu Rima İbadovadan ibarətdir.

# ATU-nun 4-cü kurs tələbələri Diyetologiya elminin ilk dərsini keçiblər

**ATU-nun 4-cü kurs tələbələri nəzəri və praktik olaraq (rasional qida və müalicəvi üsulla 65 kq arıqlayan pasiyent üzərində) Diyetologiya elminin ilk dərsini keçiblər.**

Həkim-diyetoloq Leyla Zülfüqarlı tələbələrə xəstə haqqında məlumat verib:

"Pasientimiz Polimielit keçirməsi ilə əlaqədar olaraq aşağı ətraflarda hərəkət məhdudiyyəti və piylənmənin ən yüksək dərəcəsinə çatıb. Ötən ilin may ayında mənə müraciət edərkən pasiyentin çəkisi 168 kq, bel çevrəsi isə 170 sm-dən yuxarı idi. Bu gün isə pasientin çəkisi 105 kq, bel çevrəsi isə artıq 108 sm-dir".



Qeyd edək ki, Polimielit - ətrafların kontrakturası ilə nəticələnən xəstəlik olduğu üçün pasientin az hərəkətlilik rejimində, əzələlərini xüsusi qidalandıran müalicəvi diyetası olub. O, 6,5 aya idmansız, heç bir dərman qəbul etmədən artıq çəkidən azad olub və hazırda 65 kq çəkiyə malikdir.

ATU-nun mətbuat xidməti

# Xalqımıza qarşı törədilən erməni vəhşiliyi

**Azərbaycan xalqına, türk dünyasına qarşı erməni daşnaklarının soyqırımı siyasəti 200 ilə yaxın bir dövrü əhatə etməkdədir. 31 mart soyqırımı isə öz dəhşətləri ilə tarixin qanlı salnaməsinə çevrilmişdir.**

Azərbaycan Tibb Universiteti və "Xocalı Soyqırımını Tanıtma" ictimai birliyinin birgə təşkilatçılığı ilə 31 mart – Azərbaycanlıların soyqırımı gününə həsr edilmiş tədbir keçirilib.

Tədbirdə Tibb Universitetinin müəllim və tələbələri, qurumun nümayəndələri, Gənclər və İdman Nazirliyinin və Xocalı rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, həmçinin də digər ictimai qurumların nümayəndələri iştirak ediblər.

Tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, 31 mart soyqırımı qurbanlarının və eləcə də Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Mərasimi giriş sözü ilə açan tədbirin aparıcısı, əslən Xocalıdan olan məcburi köçkün Ayna Allahyarqızı yaddaşına həkk olan o qanlı hadisələrdən danışıb.

Sonra ATU- nun tədris və müalicə işləri üzrə prorektou, professor Sabir Əliyev bildirib ki, 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğınlardan 99 il ötməsinə baxmayaraq, bu vəhşiliklər xalqın qan yaddaşında əbədi iz buraxıb: "Azərbaycan xalqı çox zülmlərə dözüb. Bu gün bizim üçün ən ağır günlərdən biridir. XX əsrdə Azərbaycan xalqının yaşadığı faciələri, soyqırımları, qətliamları demək olar ki, heç bir xalq yaşamayıb. Əgər biz keçən əsrin əvvəllərindən danışmağa başlasaq, 18-ci illərdə Azərbaycan xalqı soyqırıma, 48-ci ildə deportasiyaya məruz qalıb. 88-ci ildə isə yenidən həm deportasiya, həm də faciəli günlər yaşayıb. Ötən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri amansız soyqırımı və deportasiya siyasəti 1918-1920-ci illərdə xüsusən genişlənib




və Azərbaycan xalqını yer üzündən tam silmək kimi iyrənc niyyətlərini bütün çılpaqlığı ilə üzə çıxarıb". Sözünə davam edən S.Əliyev vurğuladı ki, ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı" haqqında 26 mart 1998-ci il tarixli fərmanı ilə xalqımıza qarşı törədilmiş ağır cinayətlərə hüquqi- siyasi qiymət verilmişdir. Bu gün isə Prezident cənab İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli "Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" sərəncamı bu istiqamətdə atılan mühüm addımlardan biridir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində gerçəkləşdirdiyi layihələr xüsusi qeyd edilməlidir: "Bu soyqırım Azərbaycan xalqı və dövlətçiliyinin tarixində baş vermiş faciəli hadisələrə milli yaddaşımızın təzahürüdür. Azərbaycanlıların kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir. Erməni millətçiləri tərəfindən törədilən bu soyqırım zamanı 30 minə yaxın adam öldürülüb. Təəssüflər olsun ki, həmin qanlı mart hadisələri zamanı xalqımızın başına gətirilən faciə barədə indiyədək dünya ictimaiyyəti yetərincə məlumatlandırılmayıb".

Tədbirdə çıxış edən Azərbaycan Gənclər və İdman Nazirliyinin sektor müdiri Elşən Hüseynov yeniyetmə və gənclər arasında vətənpərvərlik hisslərinin gücləndirilməsi və azərbaycanlılara qarşı törədilən soyqırımı haqqında maarifləndirmə işlərinin aparılmasının vacib olduğunu dilə gətirib. O, Xocalı faciəsinin Azərbaycan xalqının yaddaşından heç zaman silinməyəcəyini deyərək önəmlidir, xüsusən də gənclər belə filmərə baxmalı, millətimizin başına gətirilən bu faciə haqqında ətraflı məlumatlandırılmalıdırlar.

Tədbirdə insan anatomiyası kafedranın professoru, tibb elmlər doktoru Mübariz Allahverdiyev də çıxış edərək, bütövlükdə Azərbaycan xalqına və bütün bəşəriyyətə qarşı yönəldilmiş Xocalı soyqırımını öz ağ-



tarixin qanlı səhifələrindən biri olan 31 mart soyqırımını təkcə xalqımıza qarşı deyil, ümumilikdə insanlıq əleyhinə törədilmiş cinayət kimi qiymətləndirib. E.Hüseynov bu cinayəti törədənlərin cəzalandırılması, azərbaycanlılara qarşı həyata keçirilən bu soyqırımı aktı barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasının təxirəsalınmazlığını vurğulayıb.

Sonra "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin üzvü, jurnalist Emil Lətifoğlunun layihəsi əsasında soyqırımı qurbanlarına həsr edilən "Yara" sənədli filmi nümayiş etdirilib.

Bu səpkidə bir sıra layihələrin də olduğunu vurğulayan rejissor E.Lətifoğlu "Yara" sənədli filminin çəkilişi zamanı qarşıya çıxan çətinliklərdən söhbət açıb və bu filmin üzərində bir ilə yaxın iş getdiyini deyib.

"Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin sədri Şamil Sabiroğlu da həmin faciəli günlərlə bağlı yaşadıqlarını bölüşüb. O, bildirib ki, bu cür filmlərin çəkilməsi və nümayişi çox lasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktı adlandırıb. O, çıxışını erməninin əsl xislətini açıb göstərən rus şairi Puşkinin "Sən qulsan, sən oğrusan, çünki sən ermənisən" şeiri ilə tamamlayaraq hamını bu soyqırımı aktını unutmamağa və işğal altında olan torpaqlarımızın tezliklə azad edilməsi yolunda əllərindən gələni etməyə səsləyib.

"Qafqaz media" İctimai birliyinin və eyni adlı saytın rəhbəri Hacı Azadə Taleh çıxış edərək, erməni vandalizmini lənətləyib və soyqırımına həsr etdiyi şeirini diqqətə çatdırıb.

Daha sonra ATU-nun tələbələri Nuranə Mənsimzadənin ifasında xalq şairi Cabir Novruzun "Sevin Azərbaycanı" və Taleh Qasımovun ifasında xalq şairi Məmməd Arazın "Ayağa dur, Azərbaycan!" şeirləri tədbir iştirakçılarında xüsusi bir coşqu yaratdı və onlarda vətənpərvərlik hisslərini bir daha alovlandırdı.

**Mənsur ƏLƏKBƏRLİ**
**Fotolar Cənnətalı Çingizindir**

# UNİCEF məsləhətçisi ilə görüş keçirilib

**Aprelin 3-də Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında klinika rəhbərliyi ilə UNİCEF-in Azərbaycandakı ictimai səhiyyə və rabitə məsləhətçisi Dr.Gleen Laverack arasında görüş keçirilib.**

İngiltərəli ekspertlə görüşün məqsədi onu Azərbaycanda körpələrin qidalanması üzrə mövcud vəziyyətlə tanış etmək, bu məsələdə UNİCEF-in təqdim etdiyi hansı vasitələrdən yararlanmağın mümkünlüyünü müzakirə etməkdən ibarət olub.

Dr.Gleen Laverack UNİCEF-in müstəqil məsləhətçisi qismində ana südü ilə qidalanma sahəsində araşdırma apardığını və bu məqsədlə bir sıra qurumlarda görüşlər keçirdiyini qeyd edib. O, tədqiqatın daha dolğun və faktlara əsaslanan olması üçün Tibb Universitetinin təcrübəsi ilə tanış olmaq istədiyini bildirib.

ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev əvvəlcə qonağa klinika və xüsusilə ginekologiya şöbəsinin fəaliyyəti haqqında geniş məlumat verib.

Qeyd edib ki, 2013-cü ildən fəaliyyətə başlayan klinikada cərrahi və diaqnostik istiqamətlərdə 18 kafedra, 24 şöbə fəaliyyət göstərir. Klinikanın laboratoriyalarında dünya universitetlərinin referens laboratoriyalarında istifadə olunan tam avtomatlaşdırılmış, ən müasir biokimyəvi, mikrobioloji, immunoloji, genetik və digər analizatorlar mövcuddur. Bu da müəssisədə yüksək səviyyəli araşdırmalar aparılmasına imkan verir.





Görüşdə daha sonra UNİCEF məsləhətçisinin bir sıra sualları cavablandırılıb. Müzakirə zamanı vurğulanıb ki, dünyanın bir sıra ölkələrində, o cümlədən respublikamızda döşlə əmizdirmənin səviyyəsi arzu olunan deyil. Bu sahədə maarifləndirməni gücləndirmək məqsədilə digər ölkələrdə olduğu kimi, Azərbaycanda da UNİCEF və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə hər ilin avqust və oktyabr aylarının ilk həftələrində ana südünün üstünlüklərinə həsr edilən "Ana südü həftəsi" keçirilir. Belə tədbirin təşkilində əsas məqsəd ana südünün üstünlüklərini, döşlə əmizdirmənin vacibliyini, süni qidaların ana südünə nisbətdə fərqini analara çatdırmaq, habelə döşlə əmizdirmədə ananın məsuliyyətini artırmaqdır.

Görüşdə ATU-nun I mamalıq-ginekologiya kafedrasının müdiri Hicran Bağırova, II mamalıq-ginekologiya kafedrasının müdiri Elmira Əliyeva və Tədris Cərrahiyyə Klinikasının mamalıq-ginekologiya şöbəsinin müdiri Turab Canbaxışov iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycan-Türkiyə 3-cü Beynəlxalq Bariatrik-Metobolik cərrahiyyə konqresi keçirildi

**Aprelin 7-də Tədris Cərrahiyyə Klinikasında Azərbaycan-Türkiyə 3-cü Beynəlxalq Bariatrik-Metobolik cərrahiyyə konqresi keçirildi.**

ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov çıxış edərək bildirib ki, müasir dövrün mürəkkəb tibbi və sosial problemlərindən biri olan piyənmə və onun daha ağır növü - morbid, yəni xəstəlik səviyyəsinə çatmış piylənmə bir çox müəlliflər tərəfindən 21-ci əsrin "sakit" epidemiyası kimi qiymətləndirilir.

Prorektor bildirib ki, qidanın kaloriliyinin artması, fast-fud mədəniyyətinin yayılması, həyat tərzinin daha az hərəkətli olması insanlar, o cümlədən uşaqlar arasında bədən çəki indeksinin artmasına səbəb olur. Onun sözlərinə görə, diabet, arterial hipertenziya, qaraciyərin yağlanması, hormonal pozulmalar piylənmə ilə bilavasitə əlaqəli vəziyyətlərdir. Son 10-20 il ərzində piylənmənin müalicəsi üsulları arasında cərrahi yanaşma xüsusi yer alıb: "Həm sağlamlıq, həm də gözəllik nöqteyi-nəzərindən effekt verən, insanların həyatını, sözün əsl mənasında dəyişdirən cərrahi bariatrik və metabolik əməliyyatlar artıq Azərbaycanda da uğurla həyata keçirilir. Bu



əməliyyatların bir qismi Azərbaycan Tibb Universitetinin klinikasında aparılır. Bu səbəbdən Bariatrik toplantının universitetimizdə təşkil olunması bizim üçün xüsusi əhəmiyyətlidir. Konfransımızda qardaş Türkiyə və dost Yunanıstandan gəlmiş həmkarkarımızı salamlayıram, onlara "xoş gəldiniz" deyirəm. Türkiyə Obezite Cərrahlığı Dərnəyinin sədri, professor Murat Taşkına və Heraklion Universitetinin professoru Jon Melissaa bu tədbirə dəstək verdiklərinə görə xüsusi təşəkkür edirəm".

Prorektor R.Bəylərov həmçinin ATU-nun rektoru, professor Gəray Gəraybəylinin toplantı iştirakçılarına salamını çatdırdı.

ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev tədbir iştirakçılarını salamlayaraq bildirib ki, rəhbərlik etdiyi klinika 4 il bundan qabaq ölkə prezidenti İlham Əliyevin tövsiyyəsi ilə yaradılıb: "Bizdə belə konqreslər mütəmadi olaraq keçirilir. Bu günkü tədbirimiz də çox önəmlidir. Çox maraqlı mühazirələr dinləniləcək".

Türkiyənin Bariatrik Cərrahiyyə Assosiasiyasının sədri, professor Mustafa Taşkın artıq 3-cü dəfədir Azərbaycana səfər etdiyini bildirib: "Bizim bir-birimizdən fərqimiz yoxdu, əkizlər kimiyik. Qarşılıqlı sevgimizi hiss edirik. Bu konfrans çox önəmlidir və özündə bir çox istiqamətləri birləşdirir".

Milli Məclisin deputatı İlham Məmmədov həm millət vəkili, həm də həkim kimi konqresdə iştirakına görə çox şad olduğunu bildirib: "Azərbaycan səhiyyəsinə, elminə bunu töhfə olacaq bir konqres kimi qiymətləndirirəm. İndi piylənmə hədsiz yayılıb və bu xəstəliyin yaranma səbəbləri genişdir. Buna ətraf mühitin faktoru da böyük təsir edir. Bu gün belə koqreslərin keçirilməsi, gələcək nəsil üçün çox önəmlidir. Hər birinizə uğurlar diləyirəm".



Qeyd edək ki, Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Dərnəyinin sədri, tibb üzrə fəlsəfə doktoru Tariyel Ömərov da konfransın işini yüksək qiymətləndirərək, iştirakçılara uğurlar dilədi.

Daha sonra konqres öz işinə mühazirələrlə davam etdi.

# Tələbələr elmi-tədqiqat işlərinin bütün mərhələlərinə cəlb olunur

**Azərbaycan Tibb Universitetində təhsil alan tələbələr üçün aparıcı istiqamət tədris olsa da, elm və praktiki fəaliyyətə də xüsusi önəm verilir. Onların elmi-tədqiqat işlərinə cəlb edilməsi Tələbə Elmi Cəmiyyətinin xətti ilə həyata keçirilir.**

Bu sahədə ilk addımlarını atan tələbələri daim diqqət mərkəzində saxlayan kafedralardan biri də Patoloji fiziologiya kafedrasıdır. Burada aparılan elmi-tədqiqat işlərinin müasir tibbin ən ağrılı və aktual problemlərindən birinə-şəkərli diabetin və onun ağırlaşmalarının patogenezində limfa sisteminin rolunun öyrənilməsinə, adekvat müalicə üsullarının işlənib hazırlanmasına həsr edildiyini deyən kafedra üzrə tələbə elmi cəmiyyətinin sədri, professor Məmməd Əliyev bizimlə söhbətində kafedranın müdiri, professor Sabir Əliyevin tapşırığı ilə bütün qruplarda və qrup birləşmələrində TEC-in xətti ilə aparılan elmi-tədqiqat işləri haqqında tələbələrə geniş məlumat verildiyini, hər tədris ilinin əvvəlində onların əvvəlki illərdə bu sahədə əldə olunan nailiyyətlərlə tanış edildiyini də söylədi: "Qeyd etmək istəyirəm ki, ötən tədris ilində bizim kafedrada hazırlanan 2 elmi-tədqiqat işi - "Diabetik nefropatiyaların patogenezində lipid mübadiləsinin pozulmasının rolu" və "Diabetik retinopatiyaların patogenezində qan və limfanın damardaxili laxtalanmasının rolu" - keçən il ATU-da keçirilmiş Tələbələrin və Gənc Həkimlərin III Beynəlxalq Tibb Konqresinin gündəliyinə daxil edilmiş və tələbələr orada məruzə ilə çıxış etmişlər. Bu elmi işlərdən birincisi (məruzəçi Kəmalə Qaraisalı) isə bu yaxınlarda Dağıstanda keçirilən Ümumrusiya Gənc Alimlərinin Bilik Forumunda diploma layiq görülmüşdür. Müraciət edən və elmi-tədqiqat aparmaq arzusunda olan bütün tələbələr qeydiyyata götürülür və tədqiqatın bütün mərhələləri ilə tanış edilir. Sonra tələbələr seçdikləri mövzulara aid referat hazırlayır və təqdim edirlər. Yalnız bundan sonra tələbə elmi- tədqiqat aparmaq hüququ qazanır. Həmişə olduğu kimi bu tədris ilinin əvvəlindən yenə belə qeydiyyatlar aparılmış və 2016/2017-ci tədris ilində 30-a qədər tələbə elmi-tədqiqat aparmaq arzusunda olduğunu bildirmişdir. Hazırda 7 tələbənin apardığı elmi-tədqiqat işlərindən 4-ü başa çatmaq üzrədir və biz onların nəticələrini fakültə TEC-nin konfransına təqdim edəcəyik".



Kafedranın elmi-tədqiqat laboratoriyasında təcrübə dovşanı üzərində aparılan eksperimentin gedişini izləyərkən bir daha şahid olduq ki, tələbələr kafedrada aparılan elmi-tədqiqat işlərinin bütün mərhələləri ilə yaxından tanış olur, şəkərli diabet modeli yaradılmış dovşanlarda qanda və limfada karbohidrat, lipid və zülal mübadiləsinin, hemostazın və immun reaktivliyin 30-a yaxın göstəricisini müasir analizatorların köməyi ilə təyin edirlər. Dovşanda gözə qan sızmanın, miokard infarktının, böyrək çatışmazlığının eksperimental modelləri yaradılır, şəkərli diabet fonunda bu orqanlarda baş verən dəyişikliklər öyrənilir və fəsadları aradan qaldırmağın yolları axtarılır.

Qeyd edək ki, əczaçılıq fakültəsinin kafedraları ilə birgə əməkdaşlıq daxilində əsas müalicə üsulu kimi Azərbaycan florasına aid dərman bitkilərindən istifadəyə üstünlük verən tədqiqatçılar kafedranın maddi-texniki bazasından, o cümlədən Almaniya istehsalı olan 2 müasir aparatın imkanlarından da səmərəli istifadə edə bilirlər.

**Arif MƏMMƏDLİ**

## "İnterstisial ağciyər xəstəlikləri" mövzusunda tədbir keçirilib

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında "İnterstisial ağciyər xəstəlikləri" mövzusunda tədbir keçirilib.**

Tədbirdə direktorun müalicə işləri üzrə müavini, dosent A.Nuriyev, ağciyərin interstisial xəstəliyinin qlobal problem olduğunu bildirib: "Bu xəstəliyin ilkin mərhələsində bəzən bunu pnevmaniyaya oxşadırlar. Burda ekoloji faktorların çox böyük əhəmiyyəti vardır. Ona görə də insanlar maarifləndirilməlidir ki, onlar xəstəliyin ilk günlərində həkimə müraciət etsinlər və ağırlaşmaların qarşısını alsınlar".

Daha sonra pediatr-allerqoloq, professor Amaliya Əyyubova bildirib ki, uşaq xəstəlikləri dərsliklərində bu xəstəliklə bağlı heç bir məlumat yer almayıb: "Mən prkatikamda müşahidə etmişəm ki, hətta yeni doğulmuş uşaqlarda belə ağciyərin interstisial xəstəliklərinə rast gəlinir. Bu xəstəliyin gedişatının uşaqlarda aşkarlanması mürəkkəbdir. Ona görə də mütəxəssislərimiz çalışdıqları qədər anaları maarifləndirməlidirlər".





Tədbirdə klinikanın revmatologiya və qastroenterologiya şöbəsinin müdiri, professor Sahib Musayevin "Revmatoid artiritli xəstələrdə ağciyərlərin interstisial zədələnməsi" mövzusu ilə bağlı çıxışı dinlənilib.

S.Musayev qeyd edib ki, bu xəstəlik təbabətin ən aktual, çətin problemlərindən biridir: "Birləşdirici toxumanın diffuz xəstəlikləri içərisində ağciyərlərin zədələnməsi ən mühüm yerlərdən birini tutur. Ağciyərlərin zədələnməsi revmatoid artiritdən, qırmızı qurd eşənəyindən kəskin surətdə fərqlənir. Fərqlər ondan ibarətdir ki, bioloji zədələnmə markorları hər birində ayrı-ayrıdır.

Revmatoid artiritdə ağciyərlərin zədələnməsi çox vaxt idiopatik interstisial pnevmaniya kimi başlaya bilər. İdiopatik kəskin interstisial pnevmaniya aparılan terapiya rezistent olaraq ciddi proqnozla xarakterizə edilir. Xəstəlik qısa müddətdə fibrozla nəticələnir. Bu da proqnozu müəyyən edir. Müasir dövrdə ağciyərlərin zədələnməsi ( revmatoid artiritdə) ölümün 20%-ni təşkil edir. Xəstəliklərin beynəlxalq təsnifatında artıq ağciyərlərin revmatoid zədələnməsi nazolagiyası mövcuddur".

Tədbirin davamında həkimlər Əlizamin Sadıqovun "İnterstisial ağciyər xəstəliklərinin müalicə və diaqnostikasında müasir yanaşmalar", İlqar Mustafayevin "Hipersensitiv pnevmanitlər, idiopoatik ağciyər fibrozu ilə oxşarlıqlar və fərqlər" mövzusunda çıxışları dinlənilib.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycanda ilk dəfə olaraq Tibb Universitetinin nəzdində Heriatriya şöbəsi fəaliyyət göstərəcək

**Aprelin 7-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Tibbi Şuranın 33 saylı yığıncağı keçirilib.**

Yığıncağı giriş sözü ilə açan klinikanın direktoru, professor Hüseyn Qabulov klinikanın fəaliyyətinin ötən aylarla müqayisədə nəzərə çarpacaq dərəcədə yaxşılaşdığını deyib: “Klinikaya qəbul edilən xəstə sayı gözlədiyimizdən də yüksək səviyyədədir və bu, hətta aprel ayının ilk günlərində də nəzərə çarpır”.

O, universitetin rektoru, professor Gəray Gəraybəylinin əmrinə əsasən bəzi şöbələrin adlarında edilən dəyişikliklərlə bağlı məlumatı da diqqətə çatdırıb. Direktor bildirib ki, edilən dəyişikliklər klinikanın fəaliyyətinə öz töhfəsini verəcək.






“I və III pediatriya şöbələrinin profilləri uyğunluq təşkil etdiyinə görə, birləşdirilərək “Uşaq kardiorevmatologiya”şöbəsi adı altında birləşdirilib. II pediatriya şöbəsi “Uşaq pulmonologiya, endokrinologiya, allerqologiya” şöbəsi, Ümumi terapiya şöbəsinin isə adı dəyişdirilərək “Heriatriya şöbəsi” adlandırılıb”.

Qeyd edək ki, Azərbaycanda ilk dəfə olaraq Tibb Universitetinin klinikasının nəzdində Heriatriya şöbəsi fəaliyyət göstərəcək.

Daha sonra gündəlikdə olan məsələlərlə bağlı direktorun müalicə işləri üzrə müavini, dosent Adil Nuriyev çıxış edib.

Şöbələrin mart ayı üzrə hesabatını şura üzvlərinin diqqətinə çatdıran A.Nuriyev bildirib ki, fevral-mart aylarında xəstə qəbulunda artım müşahidə edilib.

O, endokrinologiya, kardiologiya, revmatologiya, intensiv terapiya, qastreontorologiya, angioqrafiya, III pediatriya şöbələrinə və efferent-terapiya mərkəzinə daha çox xəstə qəbul edildiyini şura üzvlərinin diqqətinə çatdırıb.

Yığıncaq işini cari məsələlərin müzakirəsi ilə yekunlaşdırıb.

## Tələbələrimiz Rusiyada keçirilən elmi forumda qalib çıxdılar

- **Azərbaycan Tibb Universitetinin tələbələri Dağıstanda keçirilən Ümumrusiya Gənc Alimlərinin Bilik Forumunda iştirak ediblər. Dağıstanın Mahaçqala şəhərində keçirilən forumda ATU-dan 3 tələbə iştirak edib. Tələbələrdən biri I, digəri isə IV yerə layiq görülüb, üçüncü tələbə forumun işində aktiv iştirakına görə təltif edilib.**



ATU-nun II müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Sərxan Həsənli forumun “Kliniki təbabət” hissəsində iştirak edib. Onun şəkərli diabetə aid təqdim etdiyi elmi iş qalib seçilib. “Ultra uzun bazal insulinlərin şəkərli diabet tip 2 xəstələrində kliniki tədbiqi prinsipləri” mövzusundakı tədqiqat şəkərli diabet xəstələrində kliniki tətbiqin prinsiplərinə həsr olunub. İngilis dilində çıxış edən tələbəmiz birinci yerə layiq görülüb, diplom və sertifikatla təltif edilib.

ATU-nun II müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Kamilə Qaraisalı isə “Diabetik nefropatiyaların patogenezində lipid mübadiləsinin pozulmasının rolu” mövzusunda elmi işi ilə IV yerə layiq görülüb.

II müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Ülvi Ələşrəfov forumda Psixiatriya kafedrasını təmsil edib. O, doktor İkram Rüstəmovun elmi rəhbərliyi altında “Şizofreniya xəstələrində ailə xüsusiyyətlərinin xəstəliyin gedişatına təsiri” mövzusunda elmi-tədqiqat işini təqdim edib. Münsiflər heyəti tərəfindən maraqla qarşılanan bu tədqiqat işi xüsusi sertifikata layiq görülüb.

Forumda yüksək nəticə əldə etdiklərinə görə ATU-nun rektoru, professor Gəray Gəraybəyli tələbələri və universitetin Tələbə Elmi Cəmiyyətinin (TEC) elmi rəhbəri, professor, əməkdar elm xadimi Amaliya Əyyubovanı, o cümlədən TEC-in sədri, tibb elmləri doktoru Müşfiq Həsənovu təbrik edib. ATU-nun adını yüksək səviyyədə təmsil etdiklərinə görə onlara təşəkkür edən rektor G.Gəraybəyli qazanılan uğurların davamlı olmasını diləyib.

Qeyd edək ki, Dağıstan Dövlət Tibb Universiteti ilə ATU arasında qarşılıqlı əməkdaşlıq və mübadilə proqramları mövcuddur.

## Uşaqlar arasında pnevmaniya xəstəliyi artıb

**Aprelin 4-də Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasında pediatr-allerqoloq, professor Amaliya Əyyubovanın xəstə təhlili ilə bağlı görüşü keçirilib.**



Görüşdə proffesor-müəllim heyəti, tələbə və rezidentlər iştirak ediblər.

A.Əyyubova şöbəyə pulmonoloji, allerqoloji, endokrinoloji profilli uşaqların qəbul edildiyini və həkimlər tərəfindən onlara diqqət və qayğının yüksək səviyyədə olduğunu bildirib.

İlk olaraq 16 yaşlı, uzun müddət I tip şəkərli diabet xəstəliyindən əziyyət çəkən yeniyetmə ilə bağlı təhlil aparılıb. Bildirilib ki, o, müraciət edən zaman onda tez-tez sidiyə getmə, çoxlu maye qəbul etmə şikayətləri aşkar edilmişdi. Xəstəlik barəsində ətraflı məlumat verən A.Əyyubova zamanında həkimə müraciət etmənin gələcəkdə xəstəliyin daha ağır formaya keçməsinin qarşısını alacağını vurğulayıb.

Daha sonra 3 azyaşlının xəstəlikləri ilə bağlı təhlil aparılıb. Onlara boğulma, burun tənəffüsünün çətinləşməsi, gözlərdə qaşınma, öskürək, təngnəfəslik və pnevmaniya diaqnozunun qoyulması ilə bağlı məlumat verilib. Qeyd edilib ki, son vaxtlar astma xəstəliyi ilə müqayisədə pnevmaniya xəstəliyi daha geniş yayılıb.

Qeyd edək ki, klinikada xəstə təhlili ilə bağlı keçirilən görüşlər silsilə xarakteri daşıyır.

## ATU-da Bursa Medikabil Xəstəxanasının nümayəndələrinin iştirakı ilə konfrans keçirilib

- **Aprelin 11-də Türkiyənin Bursa şəhərində fəaliyyət göstərən Medikabil Xəstəxanasının nümayəndələrinin iştirakı ilə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında konfrans keçirilib.**



ATU-nun rektoru, professor Gəray Gəraybəylinin təşəbbüsü ilə baş tutan konfransdan öncə idarə heyətinin sədri professor Ömər Faruk Bilgən, Medikabil Yalın Sağlıq İnstitutu koordinatoru, professor Aysun Yilmazlar və digər nümayəndə heyətinin üzvləri, Tədris Cərrahiyyə Klinikasının rəhbərliyi və şöbə müdirləri arasında görüş olub.

Klinikanın direktoru, professor Surxay Hadıyev və baş həkim, profesoor Rauf Ağayev qonaqları klinikanın həkimləri və bir cox şöbələrinin fəaliyyəti ilə tanış ediblər və keçiriləcək konfrans haqqında fikir mübadiləsi aparıblar. Qeyd olunub ki, konfransın məqsədi tibbi idarəetmə və xəstəxana xidmətlərinin mükəmməlləşdirilməsi sahəsində yeni sistemin tətbiq olunmasıdır.

Konfransda Türkiyənin Kaizen Universitetinin koordinatoru Dr. Muhsin Güneşlik, Kaizen Universitetinin müdiri Şafak Aydın və Medikabil Yalın Sağlıq İnstitutu koordinatoru professor Aysun Yilmazlar məruzə ilə çıxış ediblər.

Qeyd edək ki, Azərbaycan Tibb Universiteti ilə Türkiyənin Medikabil Xəstəxanası arasında imzalanmış memorandum var. Memorandumun əsas məqsədi akademik mübadilə və əməkdaşlığın genişləndirilməsidir.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycanda autizmli uşaqların sayı artır

• **ATU-nun Tədris Terapevtik Klinikasında 2 aprel Ümumdünya autizm gününə həsr olunmuş "II Azərbaycan Autizm Paneli" adlı tədbir keçirilib.**

Tədbirdə açılış nitqi ilə çıxış edən klinikanın direktoru, professor Hüseyn Qabulov belə tədbirlərə universitet klinikası olaraq ev sahibliyi etmələrindən məmnun olduqlarını bildirib.

Sonra ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov universitetin rektoru, professor Gəray Gəraybəylinin adından tədbir iştirakçılarını salamlayaraq, onlara uğurlar diləyib.

R. Bəylərov çıxışında dünyada və eləcə də Azərbaycanda autizmli uşaqların sayının artdığını bildirib:

"Autizm spektor pozulmaları uşaq yaşı neyroinkişaf pozulmaları arasında əhəmiyyətli yer tutur. BMT-nin uşaq fondu Heydər Əliyev fondu ilə birlikdə Azərbaycanda da bu istiqamətdə çox əhəmiyyətli işlər görür. Hər il dünyada autizmli uşaqların sayı ildən-ilə artır. Digər tərəfdən ehtiyac yaranarsa, autizmin gedişini dəyişə bilərik. Bu baxımdan pediatrların üzərinə böyük məsuliyyət düşür. Onlar uşaqlarda problemləri tez bir zamanda aşkarlayaraq, onun həllinə qismən də olsa nail ola bilərlər. Problemin aktuallığını nəzərə alaraq belə silsilə tədbirlərin keçirilməsi çox vacibdir.

Universitetimizdə bu məqsədlə keçirilən tədbirlər təqdirəlayiqdir. Artıq 2-ci ildir ki, universitetimiz ən önəmli layihələrdən olan



autizm panelinə ev sahibliyi edir".

Tədbirdə çıxış edən millət vəkili Məlahət İbrahimqızı belə tədbirlərin keçirilməsini çox yüksək dəyərləndirib: "Dünyada olduğu kimi ölkəmizdə də autizmli uşaqların sayı artır. Son zamanlar bu problemin aktuallığını nəzərə alaraq, düşünürəm ki, hökumət səviyyəsində də bu məsələləri müzakirə etmək zərurəti yaranıb. Bir sıra ölkələrdən fərqli olaraq, Azərbaycanda bu sahədə müəyyən irəliləyişlərin olduğu danılmazdır. Bu problemlə məşğul olan təşkilatların sayı yetərincədir. Bizlər də onlara əlimizdən gəldiyi qədər dəstək olmalıyıq".

M.İbrahimqızı hesab edir ki, bu sahədə dövlət proqramının hazırlanmasına ehtiyac var.

"Ölkəmizdə autizm xəstəliyi ilə məşğul olan çox savadlı həkimlərimiz var. Düşünürəm ki, onların sayəsində hər bir ana yetərincə məlumatlana və əgər uşağında belə bir problem varsa, onu vaxtında aşkarlaya bilər. Çünki maarifləndirmə işlərinin genişləndirilməsi bu sahədə çox böyük irəliləyişlərə səbəb olacaq. Dövlətimizin də səhiyyə sahəsində işləyib hazırladığı proqramlar, bu sahəyə də öz müsbət təsirini göstərəcəyinə əminəm".

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatları Mərkəzinin (İSİM) nümayəndəsi Səbinə Babazadə çıxış edərək mərkəz adından universitet rəhbərliyinə və direktora göstərdikləri dəstəyə görə minnətdarlığını bildirib.

O, mərkəz olaraq autizm sahəsində maarifəndirmə işlərinin onların əsas prioritet məsələlərdən biri olduğunu vurğulayıb:

"Əvvəllər bəzi valideynlər özləri belə uşaqlarında bu problemin olduğunu gizlədirdilər. Son zamanlarda autizmlə əlaqədar maarifləndirmə işlərinin genişləndirilməsi bu baxımdan çox müsbət nəticələr verdi. Çünki artıq hər bir valideyn, ana uşağının autizm xəstəliyini tez bir zamanda həkimə müraciət edərək aşkarlaya biləcək. Ona görə də həkimlərin üzərinə çox böyük məsuliyyət düşür. Vaxtında diaqnozun qoyulması və xəstəliyin aşkar edilməsi önəmlidir. Analar özləri də bilirlər ki, hansısa bir xəstəlik nə qədər tez və zamanında aşkarlanarsa, bu xəstəliyin gələcəkdə yarada biləcəyi fəsadların qarşısını almış olacaq".

2012-ci ildən Azərbaycanda maarifləndirmə işlərinə cəlb edildiyini diqqətə çatdıran S.Babazadə bundan sonra da görülən işlərlə kifayətlənməyəcək və bu sahədə daha uğurlu işlər görəcəklərini deyib:

"Dünya əhalisinin 1%-i autizm spektr pozuntusundan əziyyət çəkir. Autizm spektr pozulmaları ildən-ilə artır və getdikcə ağır və sosial problemə çevrilir. ABŞ-da 2004- cü ildə hər min uşaqdan 68-də həmin sindrom özünü göstərirdisə, 2014-cü ildə hər min uşaqdan 150-si onunla üzləşib".

Tədbirin davamında həkimlər Kamran Salayevin "Autizmin diaqnostik meyarları", Nigar Sədiyevanın "Uşaq inkişafı və onun qiymətləndirilməsi", psixoloq Turanə Əliyevanın "Autizm spektr pozuntusu diaqnozu olan uşaqların psixi sağlamlıq ehtiyaclarının təhsil vasitəsilə dəstəklənməsi, mövcud problemlər və inkişaf imkanları", Rima İbadovanın "Autizmlə yanaşı sıx rastlanan epileptik sindromlar və bu uşaqlarda elektroensefaloqrammanın xüsusiyyətləri", İkram Rüstəmovun "Autizm spektr pozuntularında medikal müalicə üsulları" mövzularında məruzələri dinlənilib. Sonda isə "Birgə və Sağlam"



İctimai Birliyinin sədri Aytən Zeynalova çıxış edib.

Qeyd edək ki, tədbir Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikası, Tibb Universitetinin Psixiatriya Kafedrası, İctimai Səhiyyə və İslahatları Mərkəzi (İSİM), "Birgə və Sağlam" İctimai Birliyi və "Lider Qadınlar" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

**ATU-nun mətbuat xidməti**

# DEKAN MÜHAZİRƏDƏ İŞTİRAK EDİB

◆ **Azərbaycan Tibb Universitetinin ən başlıca vəzifələrindən biri təhsilin keyfiyyətini artırmaq, beynəlxalq təhsil sisteminə inteqrasiya etmək, dünyanın qabaqcıl universitetlərinin reytinq cədvəlində layiqli yer tutmağa nail olmaqdır.**

Son bir ildə universitetimizdə xeyli iş görülüb. Belə ki, gənc kadrların irəli çəkilməsi, tədris prosesində aparılan reforma-lar və əməkdaşların işə davamiyyətinin yaxşılaşması bunun bariz nümunəsidir. Yeni təyin olunan dekanlar tədris prosesini daima nəzarətdə saxlayır, mütəmadi olaraq yoxlamalar aparır, tələbələrlə söhbətlər edir, müəllimlərə təlimatlar verir və açıq dərslərdə iştirak edirlər. Bu da nəticə etibarı ilə dərsə davamiyyəti yaxşılaşdırmış, dərsin keyfiyyətini artırmışdır. Belə ki, aprelin 11-də II müalicə-profilaktika fakültəsinin dekanı, dosent İ.Məhərrəmbəyli və baş-



qa əməkdaşlar kafedramızın gənc və təcrübəli dosenti M.Mirzəyevin mühazirəsində iştirak ediblər. Mühazirə travmatologiyanın ən vacib, aktual və prioritet problemlərindən sayılan "kəllə-beyin travması, döş qəfəsi, fəqərələr və çanaq sümüklərinin sınıqları" mövzusuna həsr edilmişdir. Bu məsələlərə dair o, çox geniş, əhatəli, hərtərəfli izahat verdi. Mühazirə zamanı problemlərin müasir aspektləri, aktuallığı izah edildi, ən müasir müalicə metodları tələbələrə slaydlarla aydınlaşdırıldı və göstərildi. Bununla yanaşı əvvəllər aparılan müalicə metodları təqdim olundu və indiki müasir metodlarla müqayisəli izahatlar verildi. Tələbələrin ən çox marağına səbəb olan və daha çox diqqət çəkən məsələ ondan ibarət oldu ki, slaydlarda göstərilən xəstələr yalnız öz klinikamızda müayinə və müalicə almış, şəxsi müşahidəmizdə olmuş xəstələrdən ibarət idi.

Mühazirə zamanı tələbələr onları maraqlandıran müəyyən suallar verərək müvafiq cavablar alırdılar. Bu da mühazirənin canlı və maraqlı olmasına, tələbələrin daha aydın başa düşməsinə gətirib çıxarır.

Bu cür yoxlamaların dekanlıq tərəfindən məqsədli və gözlənilmədən aparılması əməkdaşların bilik səviyyəsini bir daha artırmağa, onların tədris prosesinə hansı dərəcədə hazır olduğunu dəqiqləşdirməyə, keçirilən mühazirə və praktiki seminarların keyfiyyətini artırmağa, tələbələrin daha əhatəli bilik qazanmağına xidmət edir. Belə açıq dərslər tədris prosesinin yaxşılaşmasına və tələbələrin dərsə davamiyyətin yüksəlməsinə səbəb olur. Dərslərə məsuliyyətin artması həm tələbələr, həm də müəllimlər arasında özünü göstərir. Yuxarıda qeyd etdiyim kimi məqsədimiz ölkəmizə layiqli, savadlı, bilikli, bacarıqlı milli kadrlar hazırlamaq, onların bilik səviyyəsini Avropa standartlarına çatdırmaqdır. Bu gün universitetimizin məzunlarının xoş sədası dünyanın ən inkişaf etmiş ölkələrindən gəlir və biz onlarla fəxr edirik. Eşidəndə ki, onlar bizim universitetin məzunlarıdır, qürur duyuruq. Universitetimizin yeni rəhbər kadrlarına işlərində uğurlar arzulayırıq və əminliklə bildiririk ki, kafedramızın əməkdaşları tədris prosesinin yaxşılaşması üçün əllərindən gələni əsirgəməyəcəklər.

**Ə.ƏHMƏDZADƏ,**
*Travmatologiya və ortopediya kafedrasının müdiri, professor*

# TANINMIŞ ŞAİR ELDAR İSMAYILIN 75 İLLİK YUBİLEYİ KEÇİRİLDİ

**Aprelin 12-də tanınmış şair-publisist, Əməkdar jurnalist Eldar İsmayılın anadan olmasının 75 illiyi Rəşid Behbudov adına Mahnı Teatrında geniş şəkildə qeyd edildi. Keçirilən təntənəli yubiley mərasimində də mübariz şairin həyat və yaradıcılığının ictimai dəyəri, məfkurəvi mahiyyəti diqqət mərkəzində oldu.**

Ədəbi-bədii məclisin aparıcısı, Azərbaycan Yazıçılar Birliyi Qarabağ bölməsinin rəhbəri, şair-ədəbiyyatşünas Ənvər Əhməd şair dostunun yubiley sevincini bölüşməyə, onu səmimi təbrik etməyə toplaşanları salamlayaraq, Eldar İsmayılı sözün qüdrətinə önəm verən, onu yurdsevərlik vasitəsinə çevirən şair, yazıçı, publisist kimi səciyyələndirdi. O bildirdi ki, Azərbaycan mədəniyyətinin zəngin bədii-etnoqrafik qaynaqlarından olan Göyçə saz-söz məktəbinin istedadlı yetirməsi olan Eldar İsmayıl ömrünün 50 ilini anadilli ədəbiyyatımızın zənginləşməsinə, milli yaddaşın qorunmasına xidmətdə keçirmişdir. Yaradıcılığının yetkinlik çağını yaşayan söz ustası bu gün də məhsuldar çalışır, oxucuları ilə sıx ünsiyyət saxlayır.

75 yaşlı şair-publisistin mənalı həyatı və zəngin yaradıcılığı barədə məlumat verən jurnalist Arif Məmmədli bildirdi ki, onun keçdiyi kəşməkəşli ömür yolu, toxunduğu mövzular hər kəs üçün maraqlıdır. Günümüzün mühüm hadisələrinə əlüstü cavab verməsi Eldar İsmayıl yaradıcılığını səciyyələndirən başlıca xüsusiyyətlərdəndir. Elə bir tarixi gün, ictimai maraq kəsb edən hadisə yoxdur ki, onun yaradıcılıq emalatxanasında cilalanaraq nəsrə, yaxud poetik nümunəyə çevrilməsin. Şairin mövzu dairəsi olduqca genişdir. Yaradıcılığının fövqündə vətəndaşlıq, şeirlərinin nüvəsində yurd sevgisi dayanır.



Mərasimdə Azərbaycan Yazıçılar Birliyinin əməkdaşı, şair Dayandur Sevgin AYB sədri Anarın 75 illik yubileyi münasibətilə Eldar İsmayıla təbrikini səsləndirdi. Yubiliyarı təbrik edənlər onun yaradıcılığının ictimai-estetik dəyərini qeyd etdilər, Eldar İsmayıla möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzuladılar.



Azərbaycan Aşıqlar Birliyinin sədri, Nizami adına Ədəbiyyat İnstitutu direktorunun müavini, Əməkdar elm xadimi Məhərrəm Qasımlı Eldar İsmayıl yaradıcılığının estetik-etnoqrafik xüsusiyyətlərindən söz açdı. Oxucuların təsəvvüründə yaradıcılığı və şəxsiyyəti ilə Ulu Göyçə dəyərləri ilə eyniyyət qazanmış yubilyar haqqında görkəmli elm və sənət xadimlərinin söylədiyi dəyərli fikirləri xatırladan alim Xalq şairi Hüseyn Arifin Eldar İsmayıl poeziyasına verdiyi qiyməti də yada saldı: "Eldarın yaradıcılığında məni özünə çəkən cəhət şairin torpağa-daşa bağlılığı, ata-anaya, el-obaya istəyi, sadə, mehriban zəhmət adamlarına məhəbbəti, bununla yanaşı əliəyrilərə, yaltaqlara, cəmiyyətimizdə alaq otuna çevrilmiş tüfeylilərə olan nifrətdir. Dili saz dilidir: aydın, obrazlı, axıcı".

Tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa isə qaçqınlığın ilk günlərindən Qərbi Azərbaycanla bağlı tarixi faktların toplanılıb işlənməsində, erməni xəyanət və cinayətlərinin salnamələşdirilməsində, ədəbi-bədii vasitələrlə geniş oxucu kütləsinə çatdırılmasında Eldar İsmayılın müstəsna xidmətlərini vurğuladı. Azərbaycan Pedaqoji Universitetinin professoru İbrahim Bayramov yubiliyarın yurd itkisini düşmənə qarşı kəsərli silaha çevirmiş poeziyasının, tarixi mövzulu nəsrinin qaçqın-köçkün taleyi yaşayan soydaşlarımızın estetik tələbatının ödənilməsində önəmli rolunu qeyd etdi. ATU-nun professoru İbadulla Ağayev yubilyarın çoxşaxəli yaradıcılığı ilə bağlı səmimi duyğularını bölüşdü və şairin yaradıcılığından müxtəlif nümunələr səsləndirdi.

Xalq artisti, tanınmış tele-radio diktoru Eldost Bayramov şairin dillər əzbəri olan şerlərini səsləndirdi. Əməkdar mədəniyyət işçisi Aşıq Gülarə Azaflı və Aşıq Roman Azaflı, Aşıq Dəmir Gədəbəyli, "Çeşmə" aşıq qrupu, Əməkdar artist Rahidə Bəndəliyeva, xanəndə Rəşid Hüseynli və başqa sənətçilər Eldar İsmayılın nəğmələşmiş şerlərini coşğu ilə ifa etdilər.

Sonda Eldar İsmayıl yaradıcılığına verilən dəyərə, söylənən xoş sözlərə görə minnətdarlıq etdi, həyat məramına və estetik idealına bundan sonra da sadiq qalacağını bildirdi.

**Qabil ABDULLAYEV**

## Nizam-intizam qaydaları ilə bağlı iclas keçirildi

**Azərbaycan Tibb Universitetinin Həmkarlar İttifaqı Komitəsinin rəyasət heyətinin iclası keçirilib.**



İclasda ATU-nun Həmkarlar İttifaqı Komitəsinin (HİK) sədri Cahangir Qasımov bildirib ki, universitetde nizam-intizam qaydalarına ciddi diqqət edilməlidir: "Bildiyiniz kimi, rektor Gəray Gəraybəylinin təşəbbüsü ilə ATU-da bütün mühafizə sistemi dəyişdirilib, gücləndirilib. Amma bəzi müəllimlərimiz bu qaydaya riayət etməkdə çətinik çəkir. Bəzilərinin isə bu haqda yetərincə məlumatı yoxdur".

C.Qasımov iclas iştirakçılarını yeni mühafizə qaydaları və strukturu ilə tanış edərək, rəyasət heyəti üzvlərinin qarşısında duran vəzifələrdən danışıb.

İclas müzakirələrlə davam edib.

## Əməkdar artistin mədə kiçiltmə əməliyyatı uğurla başa çatıb



**ATU-nun Tədris Cərrahiyyə Klinikasında həyata keçirilən cərrahiyyə əməliyyatları uğurla davam edir. Piylənmənin müalicəsində tətbiq olunan konservativ metodlar öz effektivliyini göstərsə də, çox zaman alınan nəticə qısamüddətli olur.**

Belə olan halda bariatrik cərrahi müdaxiləyə ehtiyac duyulur.

Artıq çəkidən əziyyət çəkən əməkdar artist Nahidə Orucova da Azərbaycan Tibb Universitetinin II cərrahi xəstəliklər kafedrasının assistenti, Tədris Cərrahiyyə Klinikasının ümumi cərrahı, tibb üzrə fəlsəfə doktoru Elçin Abdinova müraciət edərək, artıq çəkidən əziyyət çəkdiyini bildirib. Aparılan ətraflı müayinələrdən sonra Nahidə xanımın əməliyyatı (mədə kiciltmə-sleeve gastrectomy) uğurla başa çatıb və artiq əməkdar artist evə buraxılıb.

## Onurğa beyninin boyun nahiyəsində ağır əməliyyat aparılıb

**Tədris Cərrahiyyə Klinikasında onurğa beyninin boyun nahiyəsində ağır cərrahiyyə əməliyyatı aparılıb. 60 yaşında kişi üzərində həyata keçirilən əməliyyat uğurla başa çatıb. Əməliyyatı icra edən doktor Fərid Qaralovun sözlərinə görə, pasiyent son 5-6 aydır getdikcə artan tetraperez (əl və ayaqlarda gücsüzlük) şikayəti ilə klinikaya müraciət edib.**



Çəkilən boyun MRT müayinəsində xəstədə C4-7 intramedulyar törəmə (onurğa beyin şişi) aşkarlanıb. Cərrahi müdaxilə ilə törəmə tam xaric edilib. Əməliyyat sonrası xəstənin tetraperezi əvvəlki səviyyədə qalmaqdadır.

Doktor bildirib ki, pasient üzərində aparılan bu əməliyyat xüsusi risk daşımaqdadır. Bu səbəblə riski minimuma endirmək üçün əməliyyat zamanı neyromonitordan istifadə olunub.

## Süd vəzi xərçəngində ən effektiv metod haqqında məruzə dinlənildi

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında "Mammoqrafiya müayinəsi, erkən müayinənin qadınların həyatına müsbət istiqamətdə təsirləri ilə bağlı" məruzə edildi.**



Məruzə ilə klinikamızın aparıcı mütəxəssisi, mammoloq-radioloq Günel Qəmbərova çıxış etdi.

O, mammoqrafiya müayinəsinin süd vəzi xərçəngində ən effektiv metod olduğunu diqqətə çatdırdı və bildirdi ki, belə müzakirələrin aparılması çox vacibdir: "Müxtəlif profilli həkimin belə bu sahədən məlumatlı olması çox vacibdır. İlk növbədə özü üçün, daha sonra qəbul etdiyi xəstələrin həyatı üçün önəmlidir. Ona görə də xəstələrə diaqnoz qoymaqda çətinlik çəkməmək üçün yetərincə tibbi biliklərə sahib olmalıyıq. Çünki, məqsədimiz xərçəngə qədər patalogiyanı aşkar edib, zamanında həmin insanlara kömək göstərməkdir.



Apardığım elmi işin də mövzusu sırf bununla bağlı olduğuna görə deyə bilərəm ki, bu xəstəlikdən kifayət qədər məlumatlı olmayan qadınlar var".

Müzakirəyə qatılan klinikanın həkim heyəti maarifəndirmə işlərində səylə çalışacaqlarını qeyd ediblər.

Maraqla keçən diskussiyada G.Qəmbərova ona ünvanlanan çoxsaylı sualları da cavablandırıb.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların professorları (elmlər doktorları):**

- Dermatovenerologiya kafedrası - 1 yer
- Dermatovenerologiya kafedrası - 1 yer (0,5 vahid)
- Klinik farmakologiya kafedrası - 1 yer
- Travmatologiya və ortopediya kafedrası - 1 yer (0,5 vahid)
- II cərrahi xəstəliklər kafedrası - 2 yer (0,5 vahid)
- İnsan anatomiyası kafedrası - 1 yer

**Kafedraların dosentləri (fəlsəfə doktorları):**

- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Tibbi fizika və informatika kafedrası - 1 yer
- II cərrahi xəstəliklər kafedrası - 1 yer
- Psixiatriya kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**

- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 2 yer (0,5 vahid)
- Dermatovenerologiya kafedrası - 1 yer
- II daxili xəstəliklər kafedrası - 2 yer (0,5 vahid)
- Onkologiya kafedrası - 2 yer (0,5 vahid)
- Terapevtik və pediatrik propedevtika kafedrası - 2 yer (0,75 vahid)
- Histologiya, embriologiya və sitologiya kafedrası - 1 yer (0,5 vahid)
- Klinik allerqologiya və immunologiya kursu - 1 yer (0,5 vahid)
- Travmatologiya və ortopediya kafedrası - 1 yer (0,5 vahid)
- Psixiatriya kafedrası - 1 yer
- Ailə təbabəti kafedrası - 4 yer
- II uşaq xəstəlikləri kafedrası - 2 yer (0,5 vahid)
- III uşaq xəstəlikləri kafedrası - 2 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 2 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyəsi kafedrası - 1 yer (0,75 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)

**Elmi Tədqiqat Mərkəzi**

- Elektron mikroskopiya şöbəsi (kiçik elmi işçi) - 1 yer
- Morfologiya və histologiya şöbəsi (kiçik elmi işçi) - 1 yer
- Biokimya kafedrası üzrə Elmi Tədqiqat Laboratoriyası (kiçik elmi işçi) - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri , Ənvər Qasımzadə küçəsi 14:**
**Telefon: (012) 597-43-23**

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin III kurs, $43^b$ qrup tələbəsi Pənahov Kamran Elçin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $43^b$ qrup tələbəsi Əliyev Məmmədtağı Fuad oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $20^b$ qrup tələbəsi Əliyeva Leyla Hacı qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $362^a$ qrup tələbəsi Səmədov Mətin Arif oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $39^b$ qrup tələbəsi Çerpanov Kamran İmran oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin III kurs, $1110^a$ qrup tələbəsi İsmayıllı Murad Rasim oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

ATU-nun hazırlıq şöbəsi tərəfindən Kaan Şahin Savaş oğlunun adına verilmiş Azərbaycan dili üzrə dinləyici bileti və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# ATU-da karate idman növünə tələbələr daha çox maraq göstərir

- **Karate yapon mənşəli termin olub, kara – boş, te - əl deməkdir. Karatenin digər mənası "pis əməllərdən uzaq olan əl" deməkdir. Karate bir tərəfdən hörmət və məhəbbət, digər tərəfdən ədalət və sakitlik aşılayır. Karate ilə məşğul olmaq insana yalnız zərbə vurmaq texnikası, müdafiə vəziyyətləri, döyüş strategiyasını deyil, eləcə də başəriyyətdəki qarşılıqlı əlaqəni duyaraq təbiətlə ahəngə cəhd etməsini öyrədir.**

İdmanın bu növü ölkəmizdə də sevilir və geniş şəkildə tətbiq olunur. Sevindirici haldır ki, bəzi ali məktəblərdə gənclərimizin sağlamlığı naminə tədris olunur.

Belə ki, 2015/2016-cı tədris ilində Azərbaycan Tibb Universitetinin Bədən tərbiyəsi və idman kafedrası "Təbib" idman klubu adı ilə fəaliyyətə başlayıb. Universitetin idman kompleksinin bazasında müxtəlif idman növləri ilə yanaşı, Şərq döyüş növü olan Kyokuşin Karate (Mütləq həqiqət) bölməsi də açılıb. Müxtəlif fakültələrin fiziki və psixoloji cəhətdən sağlam tələbələri bu döyüş növünün sirrlərini öyrənmək üçün klubun müəllim-məşqçisi Kyokuşin Karate üzrə 3-cü dan qara kəmər ustası, beynəlxalq dərəcəli hakim, Azərbaycan Respublikasının əməkdar məşqçisi Qələndər Aslanova müraciət edirlər. Məşğul olduqları qısa müddət ərzində bir çox uğurlara imza atan ATU-nun tələbələri bu döyüş növü ilə daha yaxından tanış olmaq üçün Respublika Hakimlik seminarlarında iştirak edib və IV kurs tələbəsi Namiq Seyfəddinli "J" kateqoriyalı hakimlik dərəcəsi alıb.

II kurs tələbələri Arzu İsmayılov 60 kq çəki dərəcəsində və Rəşid Novruzov 65 kq çəki dərəcəsində Kyokuşin Karate üzrə keçirilən Respublika çempionatında öz güclərini sınamaq üçün yarışa qatılıblar. Arzu İsmayılov ilk mübarizədə döyüşü dayandırsa da, Rəşid Novruzov 2 rəqibinə qalib gələrək Respublika çempionatının bürünc mükafatına layiq görülüb.

Tədris ili ərzində tələbələrimiz öz idman dərəcələrini artırmaq məqsədilə karatenin texnika-taktikası və fiziki hazırlıq tələb edən normativlərindən KYU kəmər dərəcəsi üçün test imtahanı da veriblər. Seyfəddinli Namiq, İsmayılov Arzu, Sadıxov Kamran və Novruzov Rəşid xüsusi hazırlıq tələb edən qabiliyyət nümayiş etdirərək 8-ci KYU göy kəmər dərəcəsi ilə təltif olunublar.

Tələbələrə idman təbliğatı ilə yanaşı, əməkdar məşqçi Qələndər Aslanovun təşəbbüsü ilə təşkil olunmuş "AĞ ÖLÜMƏ QARŞI İDMAN YARIŞLARI" adlı seminar da keçirilib. Seminarda fəal iştirak edən tələbələr təşəkkürnamə ilə təltif olunublar.

Martın 11-12-də Hövsan Olimpiya İdman Kompleksində Kyokuşin Karate üzrə Bakı Çempionatı keçirilib. Çempionata paytaxt çempionu olmaq üçün 19 komandanın 240 idmançısı qatılıb. ATU-nun təmsilçiləri-əməkdar məşqçi Q.Aslanovun yetirmələri Namiq Seyfəddinli və Rəşid Novruzov da (kişilər arasında-75 kq) öz güclərini sınayıblar. Çəki dərəcəsində bütün rəqiblərinə qalib gələn tələbələrimiz finalda bir-biri ilə qarşılaşmalı olublar. Gərgin mübarizədə texniki cəhətdən yüksək olan Rəşid Novruzov rəqibi, fiziki cəhətdən güclü olan Namiq Seyfəddinlini məğlub edərək Bakı Çempionu adını qazanıb. Beləliklə, Rəşid Novruzov I, Namiq Seyfəddinli isə II yerə layiq görülüb. Bu münasibətlə ATU-nun Karate bölməsinin tələbələrini və məşqçi Q.Aslanovu təbrik edir, bundan sonra da yüksək nəticələr əldə etmələrini arzulayırıq.



Məlumat üçün bildirək ki, karate bölməsinin yeni xəbərlərini aşağıdakı facebook və instagram səhifələrində izləmək olar:

**Instagram:** atu_kyokushin
**Facebook:** ATU Kyokushin

**Seyidaga ABBASZADƏ,**
*II kurs, $841^B$ qrup tələbəsi*

# Rusiyalı alimlər dişləri kariesdən qoruyan "ömürlük" plomb hazırlayıblar

- **Rusiyadan olan bir qrup alim tərəfindən plombların istifadə müddətini uzadan, dişləri karies və mikroblardan müdafiə edən "ömürlük" nanomaterial hazırlanıb.**



AZƏRTAC "mk.ru" saytına istinadla xəbər verir ki, alimlər yeni materialın stomatologiyada texnoloji inqilab yaradacağına inanırlar.

Nanohissəciklər özündə titan, dəmir, sink və digər metalların oksidini birləşdirir. Bir sıra eksperimentlərin nəticəsinə görə, qeyd olunan maddələrin cüzi konsentrasiyası belə orqanizmin özünün ifraz etdiyi təbii fermentlər kimi bütün zərərverici mikrob və bakteriyaları məhv edir.

Alimlərin sözlərinə görə, başqa stomatoloji materialların hazırlanmasında da nanohissəciklərdən ibarət xüsusi antibakterial əlavənin istifadəsi nəzərdə tutulur.

# Özünü bərpa edə bilən material hazırlanıb

**Amerikalı alimlər zədələnən zaman özünü bərpa edə bilən material hazırlayıblar.**

AZƏRTAC "mir24.tv" saytına istinadla xəbər verir ki, yeni maddə elektrik keçirmək xüsusiyyətinə malik olduğundan onu smartfonlar üçün displey kimi də istifadə etmək mümkündür.

Kəşfin müəllifləri Kaliforniya Universitetinin bir qrup alimidir. Qrupun rəhbəri Çao Van bildirib ki, material dartıldığı zaman onun uzunluğu 50 dəfə artır, parçalandıqda isə hissələri bir sutkadan gec olmayaraq yenidən bərpa olunur.

Yeni işləmənin əsasını ion-dipol əlaqəsi prinsipi təşkil etdiyinə görə, molekullar bir-birini cəzb edərək cızıq və parçalanmaları aradan qaldırır.



Ç.Vanın sözlərinə görə, üç ildən sonra özlərini bərpa edən materiallar sənayedə, xüsusilə smartfonların istehsalında kütləvi istifadə olunacaq.

Qeyd edək ki, bundan əvvəl də alimlər tərəfindən xüsusi maye əsaslı özünü bərpa edən material hazırlanıb. Həmin materialın istifadəsi kosmik sahədə baş verən qəzalar zamanı nəzərdə tutulub.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi, I cərrahi xəstəliklər, III cərrahi xəstəliklər və uşaq cərrahlığı kafedralarının əməkdaşları I cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramova qardaşı

**Rizvan Bayramovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hərbi Tibb fakültəsinin əməkdaşları fakültə rəisinin elmi işlər üzrə müavini Pərviz Məmmədova anası

**Almaz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - $98^c$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tibbqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800